

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 41 (20.942)

*4 mart 2014-cü il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İcraçı direktor Devid Harris ölkəmizə son səfərindən ötən dövr ərzində Azərbaycanın çox böyük nailiyyətlər əldə etməsini məmnunluqla vurğuladı.

Söhbət zamanı Amerika Yəhudi Komitəsinin üzvləri ilə müntəzəm görüşlərin keçirilməsinin əhəmiyyəti qeyd edildi, bu görüşlərin Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları və Azərbaycan ilə İsrail arasında əlaqələrin inkişafına töhfə verdiyi bildirildi.

Görüşdə həmçinin Azərbaycan ilə Amerika Yəhudi Komitəsi arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



## "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Babayev İsmayıl Məmməd oğlu
Bağırov Elçin İsrafil oğlu
Əhmədova Afət Qafar qızı
Əliyarov Fikrət Qəzənfər oğlu
Həsənov Akif İsgəndər oğlu
Hümbətova Həcər Mahmud qızı
Məmmədov Sabir Duman oğlu
Məmmədov Zakir Əhməd oğlu
Seyidov İxtiyar Mircəfər oğlu – **"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 mart 2014-cü il*

## Naxçıvanda yaz mövsümünün ilk iməciliyi keçirilmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Azərbaycanda ekoloji tədbirlərin gücləndirilməsi insanların sağlamlığı üçün başlıca şərtdir".***

Bu gün muxtar respublikamızda ətraf mühitin mühafizəsi məsələlərinə xüsusi diqqət və qayğı göstərilir. Çünki təbiətə qayğı ilə yanaşmaq, ekoloji tarazlığı qorumaq sağlam ətraf mühit deməkdir. Bu baxımdan hər il keçirilən yaşıllaşdırma tədbirlərinin böyük əhəmiyyəti vardır. Təkcə 2013-cü ildə muxtar respublikada 531 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 400 mindən artıq ağac və gül kolu əkilmişdir.

Təbiətin oyanmağa başladığı bu günlərdə muxtar respublikada iməciliklərin keçirilməsi də əlverişli ekoloji mühitin yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Martın 1-də muxtar respublikada növbəti iməcilik keçirilmiş, ictimaiyyətin nümayəndələri, idarə, müəssisə və təşkilatların kollektivləri yeni yaşıllıq zolaqları və meyvə bağları salmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin ətrafındakı ərazidə keçirilən iməcilikdə iştirak etmiş, yeni meyvə bağı salmışlar. Yeni salınan meyvə bağının sahəsi 3 hektardır. İməcilik zamanı burada 2 mindən artıq yerli şəraitə uyğun meyvə tingləri əkilərək suvarılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, meyvə tingləri əkmiş, ərazidə bundan sonra da ting əkinlərinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi nikahın bağlanması, doğumun və ölümün qeydiyyatının düzgün aparılması ilə bağlı seminarların keçirilməsini davam etdirir. Növbəti belə tədbir Şərur rayonunda keçirilmişdir.***

## Ədliyyə Nazirliyi seminarları davam etdirir

Tədbiri giriş sözü ilə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov açaraq bildirmişdir ki, bölgədə inzibati ərazi dairəsi üzrə nümayəndəliklər üçün müasir standartlara uyğun iş şəraiti yaradılmışdır. Yaradılan şəraitin müqabilində hər bir icra nümayəndəsi işinə məsuliyyətlə yanaşmalı, ona verilən səlahiyyətlərdən qanunun verdiyi imkanlar daxilində istifadə etməlidir.

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Suliddin Əliyev məruzə ilə çıxış edərək vurğulamışdır ki, Şərur rayonunda doğum, nikah və ölümün qeydiyyatı 53 icra nümayəndəliyi tərəfindən rəsmiləşdirilir. 2009-2013-cü illər ərzində Şərur rayonundakı inzibati ərazi dairəsi üzrə nümayəndəliklər tərəfindən doğum, nikah və ölümün qeydiyyatı ilə bağlı 9736 əməliyyat aparılmışdır. Onlardan 1894 əməliyyat 2013-cü ilin payına düşmüşdür. Hüquqi maarifləndirmə məqsədilə 2009-2013-cü illər ərzində Şərur rayonunda icra nümayəndələri üçün 14 dəfə seminar keçirilmişdir. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vəziyyətinin öyrənilməsi məqsədilə 2009-2013-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 10 dəfə yoxlama aparılmış, aşkar olunan nöqsanların aradan qaldırılması üçün icra nümayəndələrinə metodik köməkliklər göstərilmişdir. Lakin bütün maarifləndirmə tədbirlərinə və yoxlamalara baxmayaraq, inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı sahəsindəki fəaliyyətlərində hələ də bəzi nöqsanlar qalmaqdadır. Belə ki, Qışlaqabbas, Kosacan, Mahmudkənd və Ələkli kəndlərinin icra nümayəndəlikləri göstərilən metodik köməklik və keçirilən seminarlara baxmayaraq, kargüzarlıq sahəsində fəaliyyətlərini qanunvericiliyin tələblərinə uyğun təşkil etməmiş, nəticədə, nöqsanlara yol verilmişdir. Çatışmazlıqların aradan qaldırılması və bir daha təkrar olunmaması üçün Qeydiyyat Şöbəsinin rəisi icra nümayəndələri ilə bağlı işini qanunvericiliyin tələbləri səviyyəsində təşkil etməlidir. Bu sahədə Yuxarı Aralıq, Aşağı Aralıq, Yuxarı Yaycı, Düdəngə, Maxta və Çərçiboğan kəndlərinin inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin kargüzarlıq fəaliyyəti qənaətbəxş sayıla bilər. Hər bir icra nümayəndəsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin, kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə əməl etməli və vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra müvafiq əməliyyatı rəsmiləşdirməlidir. Xüsusilə nikah qeydiyyatı zamanı müraciət etmiş şəxslərin iştirakı təmin olunmalıdır. Gələcəkdə qanun pozuntusuna yol vermiş icra nümayəndələri haqqında müvafiq cəza tədbirləri görüləcəkdir.

Seminara Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov yekun vurmuşdur.

## Kənd təsərrüfatının kreditləşməsi mövzusunda kurs



Fevralın 28-i və martın 1-də Azərbaycan Bank-Tədris Mərkəzi tərəfindən Naxçıvanda kənd təsərrüfatının kreditləşməsi mövzusunda kurs keçilmişdir. Tədbirdə Bank-Tədris Mərkəzinin direktoru Cavanşir Abdullayev və ekspert Rauf Ağayev Naxçıvanda fəaliyyət göstərən bank-kredit təşkilatlarının mütəxəssisləri üçün kənd təsərrüfatının kreditləşməsi zamanı yaranan müxtəlif məsələlər haqqında məlumat vermiş, suallar ətrafında qarşılıqlı diskussiyalar aparılmışdır. Çıxışlarda kənd təsərrüfatının iqtisadiyyatdakı əhəmiyyətindən, bu sahənin fəaliyyətinin genişləndirilməsi, ərzaq bazarında bolluq yaradılması üçün lazım olan bütün sahələrə kredit dəstəyinin göstərilməsi zamanı yaranan problemlərin həlli yollarından bəhs edilmişdir.

Qeyd olunmuşdur ki, kənd təsərrüfatının spesifik xüsusiyyətləri, onun mövsümdən asılılığı, kredit alan fermer və digər kənd təsərrüfatı sahibkarlarının kreditlərdən istifadə sahəsində bacarıqlarının müxtəlif səviyyədə olması, bank-kredit müəssisələrinin kreditlərin istifadəsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi müasir kredit bazarı sahəsində qarşıda duran məsələlərdəndir. Bildirilmişdir ki, fermerlərin qarşılaşdığı çətinliklərin həll olunması üçün kənd təsərrüfatının inkişafına maraqlı olan tərəflərin korporativ məsuliyyətinin müəyyənləşdirilməsi, regionda fəaliyyət göstərən bankların öz aralarında və onlarla Kənd Təsərrüfatı Nazirliyi arasında birgə koordinasiyalı fəaliyyətin təşkil olunması, torpaqların əkinə yararlılığının müəyyənləşdirilməsi zəruridir. Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən ərzaq təhlükəsizliyi siyasətinin reallaşdırılması üçün məhsul istehsalına maraqlı olan sahibkarların işinin davamlılığının təmin olunması, onların qarşılaşdığı maliyyə çətinliklərinin vaxtında və düzgün qiymətləndirilməsi günün vacib məsələlərindəndir. Yaranmış mövsümi və qeyri-mövsümi çətinliklərin vaxtaşırı keçirilən monitorinqlərlə üzə çıxarılması, onların operativ həll olunması üçün borcalan fermerlərlə birgə təşkil olunan fəaliyyət mexanizmlərinin mənimsənilməsi vacibdir.

Vurğulanmışdır ki, kənd təsərrüfatında səmərəli kreditləşmənin həyata keçirilməsi məqsədilə borcalan müştərinin imkanlarının bütün parametrlər əsasında əvvəlcədən qiymətləndirilməsi və verilən kreditlərin vaxtında qaytarılması üçün kredit mütəxəssislərinin fermerlərlə sıx əməkdaşlığının yaradılması, bu sahədə mövcud dünya təcrübəsinin öyrənilməsi əsas şərtdir.

Sonda kurs iştirakçılarına sertifikatlar verilmişdir.

**Xəbərlər şöbəsi**

# Hər gün yenilәşәn, dәyişәn qәdim şәhәr

***Müasir dövrün insanları evinin komfortu üçün gözәl dizayn vә dekorasiya yaratmağı çox sevirlәr. Bununla yanaşı, komfort vә rahatlığın tәkcә evin divarları arasında deyil, hәm dә bütün mәhәllәdә vә şәhәrdә olması insanın hәyat tәrzinin formalaşmasına mühüm tәsir edir, onun dünyagörüşünü genişlәndirәn, kollektiv rifahların fәrdi rifahdan daha vacib olmasını sübut edәn bir mәdәniyyәtә çevrilir. Bu komfortu yaradan mühüm bir element isә şәhәrdә rahat yaşayışı tәmin edәn müasir infrastrukturdur. Ona görә dә yaşadığımız şәhәrin dә evimizin içi kimi gözәl vә sәliqәli görünmәsini istәyiriksә, onun hәr daşına, kәrpicinә diqqәtlә yanaşmalı, bu gün tikilәnlәri gәlәcәk naminә qoruyub saxlamalıyıq.***



Şәhәr tәsәrrüfatı mürәkkәb işdir vә onun idarә olunması dövrün vә inkişafın tәlәbi ilә bir-birini tamamlayan çoxsaylı tәdbirlәrin mәcmusudur. Şәhәrin bir insan mәskәni kimi inkişaf edib genişlәnmәsi tarixәn baş vermiş müxtәlif hadisәlәrlә müşayiәt olunsa da, burada gәlәcәk perspektivlәrә hesablanmış proqnozlar şәhәrin ümumi görünüşünә mühüm tәsir edir, vaxtında verilmiş qәrarlar onun gәlәcәyini әhәmiyyәtli dәrәcәdә formalaşdırır.

Şәhәr infrastrukturu vә onun sosial-mәdәni hәyatdakı rolu haqda bir Avropa şәhәrinin tәcrübәsi çox maraqlıdır. Belә ki, burada şәhәr infrastruktur şәbәkәsinin onillәr vә hәtta yüzillәr keçәndәn sonra hәlә dә yararlı vәziyyәtdә işlәyәrәk tarixi abidәlәri qorumaq, eyni zamanda müasirliyini dә tәmin etmәk üçün nә dәrәcәdә әhәmiyyәtli olduğu açıq görünür. Yәqin ki, bir çoxumuz plansızlıq ucbatından hәr dәfә tәkrar-tәkrar qazılan şәhәr küçәlәrinin hansı çәtinliklәr yaratdığını yaxşı bilirik. Ancaq belә bir şәhәrin, tәqribәn, üç yüz il bundan әvvәl inşa olunmuş yeraltı kommunikasiya şәbәkәsinin әvvәlcә poçt mәqsәdilә, sonra su vә kanalizasiya xәtlәrinin çәkilişi üçün istifadә olunması, müharibәlәr dövründә buranın әhalinin sığınacağına çevrilmәsi, daha sonra buradan teleqraf, elektrik vә qaz xәtlәri vә nәhayәt, XXI әsrdә fiber-optik kabellәrin çәkilişi üçün istifadә olunması dünyada şәhәr tәsәrrüfatına necә kompleks yanaşıldığını göstәrir. Göründüyü kimi, şәhәr infrastrukturu düzgün tәşkil edilib idarә olunduqda onillәr vә hәtta yüzillәr boyu heç bir әsaslı xәrc tәlәb etmәdәn insanların rifahına xidmәt edә bilәr.

Dünyanın gözәl şәhәrlәri çoxdur vә şübhәsiz, hәr kәsin hәyatında bir şәhәr vardır ki, bu, onun üçün ya doğulub boya-başa çatdığı, ya da ki, kәnddәn ilk dәfә gәldiyi zaman formalaşmış әn bәsit tәәssüratının belә qorunub saxlanıldığı bir şәhәrdir. Vә bu, bizim Naxçıvanımız kimi bütün şәhәrlәrdәn doğma olan bir şәhәrdir. O Naxçıvan ki, tarix boyu ona heyran olan dostlarına isti qucaq açıb, bәdniyyәtli yadellilәri dә gәldiyi kimi yola salıb vә beş minillik keçmişi ilә Şәrq vә Qәrb arasında oynadığı körpü rolunu indiyә qәdәr qoruyub saxlayaraq könüllәrin mülkündә öz taxtını qurub. Azәrbaycanın ayrılmaz tәrkib hissәsi olan Naxçıvan Muxtar Respublikasının paytaxtı olmaqla yanaşı, Naxçıvan şәhәri bu bölgәnin mühüm mәdәniyyәt mәrkәzi olmaq yolunda da sürәtlә irәlilәmәkdәdir.

Dünya әhalisinin yarısından çoxu şәhәrlәrdә yaşasa da, hәr şәhәrdә yaşayan özünün mәdәniyyәt mәrkәzindә yaşadığını iddia edә bilmәz. Çünki bir mәdәniyyәt mәrkәzindә yaşamaq elә bir ahәngdar inkişaf vә sosial mәsuliyyәt tәlәb edir ki, bu zaman insanın bütün iqtisadi, sosial, mәdәni, ekoloji maraqları ödәnilmiş, tәhlükәsizliyi tam tәmin olunmuş olsun. Axı mәdәniyyәt tәsadüfi bir qazanc deyil. Bu, hәr bir insanın cәmiyyәtdәki davranış vә tәlәbatlarının sәviyyәsini vә mәqsәdyönlü fәaliyyәt istiqamәtlәrini müәyyәn edәn mühüm bir anlayışdır.Mәdәniyyәt minilliklәr әrzindә sivilizasiyanın hәrtәrәfli inkişafla әldә etdiyi nailiyyәtlәrlә formalaşır. Bir şәhәr üçün dә tarixin intibah anında digәrlәrindәn bir addım irәli çıxaraq mәdәniyyәt mәrkәzi halına gәlmәk elә bir inkişaf nәticәsindә mümkün olur ki, bu zaman qәdim әnәnәlәr ilә bu günün tәcrübәsi uğurlu bir sintez halında vahid bir mәqsәdә – mәdәni inkişafa yönәldilir, hәr kәsin xidmәtinin Vәtәnin qüdrәtinә vә dövlәtin gәlәcәyinә yönәldiyi etiraf olunur. Bu, sözün әsl mәnasında, insan hәyatının bütün sahәlәrini güzgü kimi әks etdirәn bir mәdәni inkişaf modelidir.

Ölkәmizin müasir inkişaf mәrhәlәsindә Naxçıvan Muxtar Respublikasının istәr paytaxt Naxçıvan şәhәrinin vә istәrsә dә onun digәr yaşayış mәntәqәlәrinin inkişafına göstәrilәn diqqәt vә qayğı sakinlәrә müasir şәhәr hәyatının üstünlüklәrindәn yetәrincә istifadә edә bilmәk imkanı yaradır. Bu gün tәkcә Naxçıvan şәhәrindә cәmlәşmiş elm, tәhsil, tibb, mәdәniyyәt vә incәsәnәt ocaqları, mәtbuat potensialı, çoxlu sayda muzey vә mәdәniyyәt müәssisәlәri, geniş park vә istirahәt guşәlәri, müasir çay evlәri, gәnclәr mәrkәzlәri ilin bütün fәsillәrindә naxçıvanlıların, buraya sәfәr etmiş yerli vә xarici turistlәrin öz asudә vaxtlarını sәmәrәli keçirmәsinә imkanlar verir. Şәhәrdә hәm yaşayıb, hәm dә yaxşı istirahәt etmәk bir çox iri şәhәrlәr üçün mürәkkәb mәsәlә olsa da, mәqsәd insanların kollektiv rifahını tәmin etmәk olduqda bu işin dә öhdәsindәn gәlmәk olar. Ona görә dә kәnddәn fәrqli olaraq, şәhәrdә hәr kvadratmetr әrazinin öz dәyәri olduğundan burada aparılan planlaşdırmanın on il deyil, hәtta yüzilliklәr sonrası üçün aparılması hәr gün diqqәt mәrkәzindә saxlanılır. Elә bu baxımdan istehsal müәssisәlәrinin şәhәr kәnarına çıxarılması, yolların genişlәndirilmәsi, şәhәrin arxitekturasına vә tarixinә xәlәl gәtirәn yöndәmsiz tikililәrin aradan qaldırılması, su, enerji, rabitә vә digәr vacib xәtlәrin yeraltı vә daha tәhlükәsiz yerlәrlә aparılması, artıq xәrclәrә vә sakinlәrin narahatlığına yol vermәmәk üçün bu işlәrin koordinasiyalı aparılması hәr dәfә dilә gәtirilәn, qarşıya bir vәzifә kimi qoyulan mәsәlәlәrdәndir. Axı biz o avropalıdan niyә geri qalmalıyıq!? Onlarda hәlә texnologiyalı şәhәr planlaşdırılması olmayanda bizim şәhәrlәrdә on kilometrlәrlә uzaqlardan çәkilmiş vә yüzillәrlә yaşı olan kәhrizlәrimiz var idi. Bu kәhrizlәrin bir çoxu indi dә öz sirlәrini qoruyaraq istifadә olunmaqda, Naxçıvana gәlәn turistlәri tәәccüblәndirmәkdәdir.

*Bәzәn gözәl şәhәrlәri açıq hava altında muzeyә bәnzәdirlәr. Fikirlәşirsәn ki, doğrudan da, şәhәrdә yaradılmış insan әli möcüzәlәrinin әl dәymәmiş tәbiәt guşәlәri ilә müqayisәdә bu әn uğurlu bәnzәtmәdir. Hәr daşında tarixin nişanlarını özündә qoruyub saxlayan qәdim Naxçıvanın yeni inkişaf dövründә müasir şәhәrsalma istiqamәtindә görülәn mühüm infrastruktur işlәri dә bu mәqsәdә xidmәt edir.*

**Әli CABBAROV**

# "Gәmiqaya Mebel Fabriki"nin ixrac potensialı artır

***Son illәr muxtar respublika iqtisadiyyatında yüksәk templә inkişaf edәn sahәlәrdәn birinә çevrilәn vә yerli istehsalın stimullaşdırılmasında mühüm әhәmiyyәtә malik olan sәnaye sektorunda hәyata keçirilәn tәdbirlәr Naxçıvanın aqrar regiondan sәnaye regionuna çevrilmәsinә şәrait yaratmış, muxtar respublikada müxtәlif çeşidlәrdә yüksәkkeyfiyyәtli mәhsullar istehsal edәn rәqabәtqabiliyyәtli müәssisәlәr hәyata vәsiqә almışdır.***





Belә müәssisәlәrdәn biri dә "Gәmiqaya Mebel Fabriki" Mәhdud Mәsuliyyәtli Cәmiyyәtidir. Müәssisәdә Almaniya, İtaliya vә Türkiyә respublikalarından alınmış müasir texnoloji avadanlıqlar quraşdırılmış, müxtәlif çeşiddә keyfiyyәtli mәhsul istehsalı üçün geniş imkanlar yaradılmışdır. Mebel fabrikindә divan, kreslo vә yumşaq oturacaqlı stullar, döşәmә, hәmçinin ofis, mәtbәx, yataq mebellәri, qapı-pәncәrә, dekorasiya vә qapı-pәncәrәlәrin boyanması üçün boyaqxana sexlәri fәaliyyәt göstәrir. Burada ağac profilli qapı vә pәncәrәlәr, modern vә klassik üslubda dizayn edilmiş mebellәr, sosial vә inzibati binalar üçün müxtәlif avadanlıqlar istehsal edilmәklә yanaşı, dizayn-dekorasiya xidmәtlәri dә göstәrilir.

Fabrikdә tәtbiq olunan keyfiyyәtә nәzarәt sistemi mebel istehsalında istifadә olunan materialların vә hazır mәhsulların davamlılığını, uzunömürlülüyünü tәmin edir. Material kimi istifadә olunan mәhsulların bir qismi Türkiyә Respublikasından, Afrika ölkәlәrindәn vә Gürcüstan Respublikasından idxal olunur. 2010-cu ilin yanvar ayından fәaliyyәtә başlayan müәssisәdә mebel istehsalı sahәsindә tәcrübәli mütәxәssislәr çalışırlar. Fabrikdә işçilәrin sağlamlığının mühafizәsi dә diqqәt mәrkәzindә saxlanılmış, xüsusi havatәmizlәyici qurğu quraşdırılmışdır.

Müәssisәdә istehsal prosesi avtomatlaşdırılmış, texniki tәhlükәsizlik qaydalarına ciddi әmәl olunmaqla normal iş şәraiti yaradılmışdır. Burada fәaliyyәt göstәrәn laboratoriyada müasir avadanlıqlar quraşdırılmışdır ki, bu da istәr xammal, istәrsә dә hazır mәhsulların keyfiyyәt göstәricilәrinә nәzarәtin tәmin olunmasına imkan verir. Hazırlanan mәhsullar "Gәmiqaya" әmtәә nişanı ilә fabrikin sәrgi-satış salonunda, Naxçıvan şәhәrinin "Tәbriz" küçәsindә, Babәk mәhәllәsindә vә Ordubad şәhәrindә fәaliyyәt göstәrәn mebel mağazalarında satışa çıxarılır. Müәssisәdә istehsal olunan klassik, avanqard vә modern mebellәr ölkәmizin paytaxtında vә digәr regionlarda da alıcılar tәrәfindәn rәğbәtlә qarşılanır. Hazırda Bakı şәhәrinin Nәrimanov vә "Neftçilәr" prospektlәrindә, Sumqayıt, Goranboy, Lәnkәran şәhәrlәrindә satış mәrkәzlәri fәaliyyәt göstәrir. Müәssisәnin satış mәrkәzlәrinә müraciәt edәn müştәrilәrә zövqlәrinә vә ev şәraitinә uyğun müxtәlif çeşiddә mebellәr tәklif olunur. Müştәrilәr hazır mebellәri satış mәrkәzlәrindәn seçә vә ya sifariş edә bilәrlәr.

Hazırda istehlakçılar tәrәfindәn hәm klassik, hәm dә modern üslubda hazırlanmış mebellәrә böyük tәlәbat var.

Mәhsulları keyfiyyәti ilә seçilәn "Gәmiqaya Mebel Fabriki" Mәhdud Mәsuliyyәtli Cәmiyyәti qısa zamanda rәqabәtqabiliyyәtli müәssisәyә çevrilmişdir. Burada istehsal olunan mebellәr daxili bazarda özünә böyük istehlakçı kütlәsi toplamışdır. Müәssisәdә istehsal olunan mebellәrin xarici bazarlarda tanıdılması mәqsәdilә ardıcıl tәdbirlәr hәyata keçirilir, biznes-forumlarda vә sәrgilәrdә iştirak edilir, xarici şirkәtlәrin nümayәndәlәri ilә fikir mübadilәlәri aparılır, bu sahә ilә mәşğul olan sahibkarların tәcrübәlәrindәn bәhrәlәnmәklә xarici bazarlardan alıcı cәlb edilmәsinә çalışılır. Hәyata keçirilәn kompleks tәdbirlәrin nәticәsidir ki, müәssisәnin Gürcüstan Respublikasının Batumi şәhәrindә satış mәrkәzi yaradılmış, "Gәmiqaya Mebel Fabriki" Mәhdud Mәsuliyyәtli Cәmiyyәtindә istehsal edilәn vә "Gәmiqaya" әmtәә nişanı ilә satışa çıxarılan keyfiyyәtli mebellәrin satışı tәmin olunmuşdur. Digәr xarici ölkәlәrdә dә müәssisәdә istehsal olunan mebellәrin satışa çıxarılması nәzәrdә tutulur.

Müәssisәdә 410 nәfәr daimi işlә tәmin olunmuşdur. Yüksәk әmәkhaqqı, xüsusi geyim formaları ilә tәmin olunan kollektiv ötәn il 6 milyon 486 min 500 manatlıq mәhsul istehsal edib satışa çıxarmışdır.

**Kәrәm HӘSӘNOV**

***Naxçıvan şәhәrinin İslam Sәfәrli küçәsindә ötәn ilin mart ayından inşasına başlanan 400 yerlik avtomobil dayanacağında işlәr sürәtlә davam etdirilir.***

# Naxçıvan şәhәrindә avtomobil dayanacağı tikilir



Burada inşaat işlәrini "Dizayn" Mәhdud Mәsuliyyәtli Cәmiyyәtinin kollektivi hәyata keçirir. Obyektin iş icraçısı Nәsir Nәsirovun bildirdiyinә görә, avtomobil dayanacağı zirzәmi ilә birlikdә dörd mәrtәbәdәn ibarәt olacaq. Binada qәlib-beton işlәri başa çatdırıldıqdan sonra mәhdud ölçüdә hörgü işlәri hәyata keçirilәcәk, fasad hissәdә daha estetik görüntü әldә etmәk üçün, әsasәn, şüşә konstruksiyalardan istifadә edilәcәk.

Qeyd edәk ki, muxtar respublikada nәqliyyat kompleksinin inkişafı üçün nәqliyyat sisteminin tәhlükәsizliyinin tәmin edilmәsi, avtomobil yollarının vә yol infrastrukturunun inkişaf etdirilmәsi, o cümlәdәn mövcud yollar üzәrindә beynәlxalq әhәmiyyәtli tranzit yollarının salınması, nәqliyyat vasitәlәrinin rahat vә tәhlükәsiz hәrәkәti tәdbirlәrinin hәyata keçirilmәsi, şәhәr nәqliyyatı işinin ekoloji tәmizlik vә sәrnişin daşınmasında daha sәmәrәli nәqliyyat növlәrinin istifadә prinsiplәrini әsas götürәrәk müasir standartlar sәviyyәsinә çatdırılması istiqamәtindә işlәr aparılmaqdadır.

**Xәbәrlәr şöbәsi**

# XXI əsr ailəsinə səmimi baxış: bənzərsiz milli ailə institutumuzu qoruyaq və yaşadaq

*İnsanın sınağa çəkildiyi anlardan biri də ailəsini qoruyub saxlamaq imtahanıdır. Ailənin bütövlüyünə son qoymaq mənəvi baxımdan ən böyük cinayət hesab olunur. Bəs ailəni necə mühafizə etmək olar, hansı amillər ailə modelimizə təhlükədir? Bu kimi suallarımızı Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov cavablandırır.*

***– Bilirik ki, Azərbaycan xalqı üçün ailə müqəddəsdir. Ancaq etiraf etmək lazımdır ki, yaşadığımız zamanda özünü göstərən qloballaşma bəzən bu müqəddəsliyi təhdid edir. Bunlardan biri də, deyərdim ki, əsası ailələrin parçalanmasıdır.***

– Ölkəmizdə ailənin qurulması, qorunması və inkişafı ən yüksək qanunverici akt olan Azərbaycan Respublikasının Konstitusiyasında açıqca göstərilir: "Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır", "Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz". Söz yox ki, əksər ailələr bu prinsiplər əsasında qurulur və ailə quranlar həyatın enişli-yoxuşlu yollarını birgə addımlamağa qərar verirlər.

Ailə Tanrının bir lütfüdür. Ailə öz-özünə yaranmır, qurulur. Və öz-özünə dağılmır, dağıdılır. Ailə uçqunu altında isə çoxları mənən məhv olur, sarsılır: qundaqdakı körpədən tutmuş bir zamanlar ailə yaratmaq məqsədilə təbəssüm dolu baxışlarla əl sıxışmış ərlə-arvadadək. Hər bir dağılan ailənin faciəsi bununla bitmir. Onun fəlakət dalğası cəmiyyətin özülünü silkələyir (çünki ailə cəmiyyətin özülüdür), dövlətin əsaslarına mənəvi zərbə vurur (çünki ailə kiçik bir dövlətdir).

Düzdür, muxtar respublikada nikaha xitam verilmə statistikasına nəzər salanda bu məsələ ilə bağlı təbil çalmağa gərək olmadığını görürük. Amma 20-30 il sonranı da düşünməyin bizim borcumuz olduğunu unutmamalıyıq. Xalqımıza xas olmayan, ziddiyyət təşkil edən ailə modellərinin tüğyan etdiyi dünyanın bəzi nöqtələrindən qaynaqlanan "qara buludu" qloballaşma küləyi bizim də ailələrin üzərinə gətirə, bunun qarşısını alacaq siparin gecikməsində isə "amansız leysan" xalqımızın milli-mənəvi dəyərlərinin beşiyi, ən qiymətli xəzinəsi olan ailə modelimizi yuyub apara bilər.

***– Necə düşünürsünüz, ailələrin dağılma səbəblərini sosial problemlərə bağlamaq olarmı?***

– Əsla yox. Bu, məsələyə düzgün yanaşma deyil. Çünki bir vaxtlar 10-15 nəfərin bir mənzildə yaşadığı ailələr olub. Həmin ailələrdə müxtəlif problemlər olanda belə, hər iki tərəf məhz ailənin dağılmaması üçün həmin çatışmazlıqları qabartmazdı. İndi ailələrin yaşayış standartları, sosial aurası 40-50 il bundan əvvəlkindən dəfələrlə yüksəkdir. Halbuki o dövrdə boşanmalar, demək olar ki, yox idi. Deməli, boşanmaya səbəb olan hadisələri başqa amillərdə axtarmaq lazımdır. Əvvəllər maddi sıxıntı ailəni daha möhkəm edirdi. Nənə-babalarımız bu sıxıntıdan qurtulmaq üçün əsl birlik göstəriblər. Bu da xalqımızın min illər ərzində formalaşdırdığı ailə dəyərlərinin vacib bir hissəsidir.

***– Bəs siz bu gün cəmiyyətimizdə nikahlara xitam verilməsi səbəblərini nədə görürsüz?***

– Nikahlara xitam verilməsinə səbəb olan amillərdən biri erkən nikahdır. Erkən nikah nikah yaşına çatmayanların (Azərbaycan Respublikasının Ailə Məcəlləsində nikah yaşı oğlanlar, həm də qızlar üçün 18 yaş müəyyən olunmuşdur) ailə qurmalarıdır. Belə ailələr mənəvi gücü və maddi bazası olmadığından bünövrəsi qoyulan gündən yerindələngər vurur, hər an dağılma ehtimalı yüksək göstərici ilə müşayiət olunur. Birlik göstərəcək gücün və təcrübənin yoxluğu, ailənin özü-özünün təsdiq etmək bacarıqsızlığı, ər və arvadın "ailə yükünü" daşımaq iqtidarsızlığı ətrafdakıların da ailənin parçalanmaq təhlükəsinin ilkin "qığılcımlarına" laqeyd yanaşmasına gətirib çıxarır. Ailə parçalandıqda isə hamı bunu gözləyirmiş kimi sakit qarşılayır. Kor-koranə qurulan belə ailələrdə tərəflərə müəyyən müddətdən sonra, yaş keçdikcə yaşadıqları mühitin ab-havası o qədər də xoş təsir bağışlamır. Bu da ailə qurulan ilk 2-3 ildə cütlüklərin sosioloji baxımdan tam yetkin olmaması ucbatından bir-birlərinə adaptasiya olunmaması ilə bağlıdır. Kritik mərhələyə gözüyumulu gələn tərəflər gözləri açılan vaxt qarşısındakının adi bir ərköyünlüyünü dəhşətli mənzərə kimi görür və qəbulolunmaz qiymətləndirərək ayrılmağa qərar verir. Erkən nikahın caynağına keçirdiyi qurbanlarının əksəriyyəti də təhsil səviyyəsi aşağı olan qadınlardır. Onlar düşünürlər ki, ali təhsil ala bilməyəcəyəm, heç olmasa ailə həyatı qurum ki, barı bu tərəfdən yarıyım. Lakin belə absurd fərziyyə bəzən onları mənalı ömür yaşamaqdan məhrum edir.

***– Dünyanın hazırkı inkişaf mərhələsi, informasiyanın sürətlə yayılması, sosial şəbəkələrdən və yaxud mobil telefonlardan xalqımızın əxlaqi dəyərlərinə zidd istifadə ailələrin dağılmasında pay sahibi ola bilərmi?***

– Hamımıza məlumdur ki, XXI əsrin ürək döyüntüləri olan informasiya-kommunikasiya texnologiyaları insanların həyatında getdikcə daha böyük rol oynamaqdadır. İnformasiya selini dünyanın bir nöqtəsindən digər bir hissəsinə sürətlə daşıyan, insanların məlumat "aclığını" aradan qaldıran, intellekt səviyyəsini yüksəldən internet bəzən də iradəsi zəif insanları çaşbaş salır, süni həyat yaşamağa vadar edir. Bu aspektdən boşanmaların diaqramına nəzər salarkən sosial şəbəkələrdən yersiz, ər-arvada yaraşmayan səpkidə istifadə edildiyini görürük. Qiyabi tanışlıqlar, məktublaşmalar, mövsümi olaraq yaranmış "hüdudsuz məhəbbət" istər-istəməz doğma ailəsini yad bir insanın kölgəsində qoyur. Öz həyat yoldaşını qiymətləndirmək bacarığı məhdudlaşır, ailə və cəmiyyət qarşısında daşıdığı məsuliyyət dayazlaşır, beləliklə, boşanmanın ilk səhifəsi açılmış olur. Ailə daha dərin məzmun daşımır, adiləşir. Eyni ilə mobil telefonlara da bu prizmadan yanaşanların aqibəti ailə itkisidir. Ailəni dağıdan bu iki amil ailə üzvlərinin asudə vaxtının düzgün təşkil olunmaması ucbatından meydana gəlir. Birgə gəzintiyə çıxmaq, istirahət və görməli yerləri dolaşmaq, qohum-əqrəbanın ziyarətinə getmək ata, ana və övlad halqasını daha sıx bir-birinə bağlayır. Bəzən vaxtın yoxluğu ilə bunların mümkünsüzlüyündən dəm vuranlar saatlarla kompüter qarşısında faydasız, xeyir gətirməyən işlər üçün oturmağa, mobil telefonlarla danışmağa qiymətli vaxt sərf olunduğunu unutmamalıdırlar.

***– Necə düşünürsünüz, indi ailə münasibətlərində mənfi cəhətdən qabarıq olan nədir?***

– Ailə institutuna ağır zərbələri ilə yadda qala bilən məsələlərdən biri valideynlər arasında münasibətlərin kobud şəkildə pozulmasıdır. Bu acınacaqlı situasiyada hər iki qüvvə ailənin maraqlarını unudur, ailə müdafiəsiz qalır və nişangaha çevrilir.

Ailədə tərəflər arasında etik normaların pozulmasına, nəticə etibarilə, ailənin dağılmasına səbəb olacaq amillər sırasında ərin pis vərdişlərə, avaralığa meyilli olması, zəhmətə qatlaşmaması, qadının isə tənbəllik etməsi, evin xanımına aid işlərdə bacarıqsızlığı yer almaqdadır. Əməksevərlik xoşbəxt olmağın açarıdır. Təsadüfi deyil ki, dünya nemətləri üçün başqalarının qarşısında əyilməmək, öz ləyaqətini saxlamaq, daim əməyə bağlı olmaq ulularımızın bizə ən dəyərli nəsihəti olmuşdur. Həqiqətdir ki, qanun-qayda ilə qurulan, zəhmətə qatlaşmağı bacaran, əməyə bağlılığı ilə seçilən hər bir ailə mehribançılığı qoruyub saxlaya bilmiş, xoşagəlməz halları özündən uzaq tutmuşdur. Evin kişisi zəhmət çəkməyi bacarmalıdır. Bu təkcə onun maddi gəlir əldə etməsini şərtləndirmir, eyni zamanda ailədə onun nüfuzunu yüksəldir, ona hörmət duyğusu yaradır. Evin xanımının da bu mənada üzərinə düşən vəzifələr vardır: mətbəx mədəniyyətini öyrənmək, səliqə-sahman işlərində tənbəllik göstərməmək. Qadının ictimai və digər sahələrdə fəaliyyət göstərməsi onu ev işlərindən kənarlaşdırmamalıdır. Ailəyə maddi köməkliyin göstərilməsi hər şey demək deyildir. Evin xanımı tərəfindən görüləcək elə məişət işləri var ki, ailənin möhkəmliyi üçün əvəzsizdir.

***– Ailələrin dağılması uşaqlara necə təsir edir?***

– Ailələrin dağılmasında ən çox zərbə nəslin davamçısı olan uşaqlara dəyir. Özü də bu zərbələri ata və ana onların bütün varlığına endirir. Ailədə valideynlərin mübahisələri, etik qaydaları kobudluqla pozması və nəhayət, nikaha xitam verilməsi zamanı məhkəmə çəkişmələri uşaqları sevinc yuvasından, şirin arzularından çəkib çıxarır. Onların saf, xoşagəlim təbəssümlərini nisgil dolu baxışlar əvəzləyir. Bu hadisədə uşaqların aldığı bərpaolunmaz travma vərəm çöpü kimi ömür boyu onları izləyir, psixi pozğunluq, aldıqları natamam təlim-tərbiyə gələcəkdə onların ictimai və peşə fəaliyyətlərinin dolanbaclarında büdrəmələrinə səbəb olur. Etiraf etməliyik ki, yetkin insan üçün dəyişilməz olan bir şey varsa, o da valideyndir. Yəni heç kimin ağlına gəlmir ki, öz valideynlərini dəyişdirsin və ya itkisini sakitcə seyr etsin. Uşaqlar ətrafla daha az təmasda olduqlarından ata və analarına sonsuz məhəbbətlə bağlanırlar. Boşanmağı ağlına gətirənlər, nikahlarına xitam verməyə imza atanlar, ilk növbədə, bunları ağlına gətirib uşaqları üçün nə qədər əzabverici bir məsələyə qərar verdiklərini düşünməlidirlər.

Uşaq milli-mənəvi dəyərləri, əxlaqi normaları, adət-ənənələri, davranış mədəniyyətini, ətrafdakılarla ünsiyyət qaydalarını ailədə valideynlərdən öyrənir. Buna görə də hər bir valideyn öz ailəsini qorumaqla övladları üçün şəxsi ambisiyalarından, müəyyən maraqlarından keçməyi bacarmalıdır.

***– Sonda bilmək istərdik, komitə olaraq ailə institutumuza xas olmayan halların qarşısını almaq üçün hansı tədbirləri görürsünüz?***

– Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi muxtar respublikanın rayon və kənd mərkəzlərində ailə dəyərlərimizin təbliğ olunması, ailə münasibətlərinin düzgün qurulması, ailəni quran tərəflərin hüquq və vəzifələri, cəmiyyət və dövlət qarşısında daşıdığı məsuliyyət və digər istiqamətlərdə gənclər arasında mütəmadi konfranslar, seminarlar və tədbirlər keçirir. Gənclərlə maarifləndirici söhbətlər zamanı biz ailə dəyərlərinin üzərində daha çox dayanıb onun cəmiyyətimiz üçün mahiyyəti, ailənin möhkəm və sağlam olmasındakı əhəmiyyətli rolu barədə geniş məlumat veririk. Çünki xalqımızın ailə dəyərləri milli-mənəvi dəyərlərimizin tərkib hissəsi kimi hər birimizin əxlaqi keyfiyyətlərimizin formalaşmasında təməl prinsiplərdir. Düşünürəm ki, əgər xalqımızın seçdiyi ölkə Prezidenti "Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam" deyib and içirsə, hər birimizin borcudur ki, milli-mənəvi dəyərlərimizi, o cümlədən ailə dəyərlərimizi, əsrləri özündə ehtiva edən adət-ənənələrimizi həyat tərzimizə çevirək.

Yekunda yeni ailə quran hər bir gəncə bildirmək istəyirəm ki, ailə uğurlu gələcəyin, xoşbəxt həyatın əvəzedilməz formuludur. Ailənin parçalanması yuvası dağıdılmış qaranquşların pərən-pərən olması kimi bir şeydir. Bunu yaşayan insanlar heç zaman uğur qazana bilmir, sıxıntılar ağuşunda ömürlərini başa vururlar. İnancımıza görə, balaca fidanların qanadını qırmaq, onları ata nəsihətindən, ana nəvazişindən məhrum etməyin də cəzası böyükdür.

***Müsahibəni apardı:***

**✍ Sara ƏZİMOVA**




# Günəş-od-atəş inamı ilə bağlı çərşənbə: OD ÇƏRŞƏNBƏSİ

Yazın gəlişini ovçuluqla, maldarlıqla, əkinçiliklə məşğul olan bütün soy birləşmələri, qəbilə birləşmələri, xalqlar, o sıradan azərbaycanlılar səbirsizliklə gözləmişlər. Yaz özü ilə ruzi-bərəkət, istilik gətirir. Əski insan, ulu ata-babalar məhz buna görə də yazı qarşılamaq üçün onun istisinin şərəfinə mərasim keçirirdilər.

Əcdadlarımız oda xoşbəxtlik, insana uğur bəxş edən hami – canlı kimi baxmış, ona and içmiş, dua etmiş, alqış və etiqadlar yaratmışlar. Odla bağlı "Qodu xan" etiqadında deyilir: od çərşənbəsində adamlar sübh tezdən hündür bir təpənin üstündə tonqal qalayardılar. Həmin tonqalın dövrəsinə toplaşıb Günəşin doğmasını gözləyərdilər. Elə ki Günəş doğdu, hamı onu salamlayan "Qodu xan" nəğməsini oxuyar, tonqalın başında dövrə vurar, sonra da hərə tonqaldan bir üskü götürüb ocağını alışdırmaq üçün evə tələsərdi. Adamlar tonqalın dövrəsinə dolandıqda, eləcə də gəlib öz ocaqlarını yandırdıqda oxuyardılar:

*Qodu xan, Qodu xan,*
*Söndürmə odu, xan.*
*At üstə qod gətir,*
*Ulusa od gətir.*
*Sözü bal Qodu xan,*
*Özü al Qodu xan.*

Çərşənbələrdə tonqalqalama, göyə yanar üsküləratma, odun üstündən atlanma və sair el adətlərindəndir, daha doğrusu, əski mifik dünyagörüşlə bağlı bir məsələdir. İşığın, Günəşin gücünə inanan qədim insan odun, alovun köməyi ilə yad-yabançı ruhları, soyuq, qaranlıq, xəstəlik gətirən, yaşayışa sıxıntı verən şər qüvvələri qovub uzaqlaşdırmağın mümkünlüyünə inanmışdır. Burada bütün məqamlarda od Günəşin rəmzi kimi düşünülür.

Kiçik çillənin qurtardığı vaxtdan yazın ilk gününə qədər olan dövr ərzində dörd ünsürlə bağlı çərşənbələr qeyd olunur. Od çərşənbəsi sayılan ikinci çərşənbə əski görüşlərlə bağlı olub, Günəşə, oda, odu qoruyub saxlama inancı ilə əlaqədar yaranan ilaxır çərşənbələrin ikincisidir. Buna xalq arasında "Üsgü çərşənbə", "Üsgü gecəsi", "İkinci çərşənbə", yaxud da əzizləmə məqsədilə "Addı çərşənbə" də deyilir. İnsanlar arasında belə bir etiqad yaranmışdır ki, onlar Günəşi və odu nə qədər əzizləsələr, təbiət o qədər tez isinər, adamlara xoşbəxtlik gətirər.

Qədim inam və etiqadlara görə, Günəş-od-atəş tapınmasının ilk nümunəsi, daha doğrusu, mənbəyi ağacın gövdəsində yatan istiliklə də bağlı olmuşdur. Əski etiqadlarda insanın qızındığı istiliyin ilk mənbəyi də Ağac kultu hesab olunurdu.

"Dağdağan, zoğal, əncir və tut ağaclarını odda yandırmazlar", "Ağacın istisinə isinərlər", "Od çərşənbəsində "ağlayan" ağacı kəsən sonsuz qalar", "Palıd ağacının istisi sağlamlıq gətirər" və sair kimi yaranan inamlar da Ağac kultu ilə əlaqəlidir. Ulu babalarımız bunun şərəfinə "Şəhrivər" adlı şənliklər də keçirərdilər. İnsan bədənində və təbiətin özündə qorunub saxlanılan istilik də müqəddəs hesab olunurdu. Göründüyü kimi, od çərşənbəsində Günəş-od-atəş anlamı çox geniş ölçülərdə qəbul və dərk olunmuş, təbiətin dörd ünsüründən biri olan oda erkən inam və etiqadlar silsiləsini yaratmışdır.

Ulularımızın od-ocaq qarşısında səcdəyə durmalarını, əyilib ocaqdan od almalarını, odun ətrafında ayin, oyun və əyləncələri icra etmələrini ağbirçək nənələrimizin, ağsaqqal babalarımızın dilindən eşitmişik. Onlar insanın yaşadığı yerə, yurda, elə, obaya bağlılığını, insanın məskən saldığı yerə "ocaq" dediklərini od duyğusu ilə bizə çatdırıblar. Odsevər əcdadlarımız ta qədim zamanlardan bütün el şənliklərini, toy-bayram büsatlarını alovla, tonqalla rövnəqləndirib, evlərdə, eyvanlarda çıraqlar yandırıb, gəlin köçən qızların yoluna çıraq tutublar və sair. Xalqımızın odla bağlı uzaq keçmişindən yadigar qalan bu kimi adət və ənənələr bu gün də yaşayır.

"Oda dərdini deyən xeyir aparar", "Ocaq sönməyən yerdə məskən salarlar", "Odsuz ocaq olmaz", "Od düşdüyü yeri yandırar", "Oda pənah aparanın ocağı sönməz", "Gün düşən yerdə xəstəlik olmaz", "Gün doğanda ziyarətə yola düşərlər", "Çıraq yeri qibləyə olan ev uğurlu olar", "Od haqqı!", "Ocaq haqqı!", "Ocağa and olsun!", "Ocağın bərəkətli olsun!" və sair kimi folklor nümunələri oda inam və etiqaddan yaranmışdır. Günəşlə, odla, ocaqla bağlı əski çağlarda keçirilən mərasimlər xalqımızın ən qədim görüşlərindən olub, bir sıra qayaüstü rəsmlərdə əks olunmuşdur. Şübhəsiz ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan əhalisinin mədəni inkişaf tarixini özündə yaşadan Ordubad rayonu ərazisindəki Gəmiqayada arxeoloqlar tərəfindən öyrənilmiş qayaüstü təsvirlər arasında qayanın mərkəzi hissəsində od və Günəş rəmzi sayılan kiçik dairə, onun ətrafında isə rəqs edən insan təsviri də əcdadlarımızın Günəşə, oda, atəşə olan etiqad və inamlarını ifadə etməkdədir.

**Nizami ƏZİZƏLİYEV**

## “Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası” kitabı üzüm genefondunun tədqiqində ilk fundamental əsərdir




***AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Tariyel Talıbovla birlikdə həmin institutun Meyvə, tərəvəz və üzümçülük laboratoriyasının müdiri, aqrar elmləri doktoru Varis Quliyevin 30 illik elmi-tədqiqat işlərinin nəticələri əsasında hazırladıqları “Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası” adlı monoqrafiya geniş oxucu kütləsinə təqdim olunmuşdur. Kitabda muxtar respublika ərazisindəki üzüm genefonduna aid müxtəlif növ sortların biomüxtəlifliyi barədə ətraflı məlumatlar öz əksini tapmışdır. Nəşrdə Naxçıvan Muxtar Respublikasında üzümçülüyün inkişaf tarixi, müasir vəziyyətindən bəhs olunmuş, bu sahənin inkişafı üçün yararlı torpaq sahələrinin xəritəsi verilmiş, üzüm tənəyinə təsir edən ekoloji amillər tədqiq edilmiş, genefondun tərkibi, ərazidə yayılan yabanı üzüm biotipləri haqqında məlumatlar öz əksini tapmışdır. Həmçinin monoqrafiyada 93 aborigen, 14 introduksiya olunmuş və seleksiya yolu ilə alınmış yeni üzüm sortlarının morfoloji xüsusiyyətləri və irsi əlamətləri, əsas fenoloji fazaların gedişi, biomorfoloji və aqrobioloji göstəricilərı, xəstəliklərə və şaxtalara dözümlülüyü, habelə istifadə edilən məhsulun xüsusiyyətləri araşdırılmış, becərilən perspektivli sortların iqtisadi qiymətləndirilməsi aparılmış, onların ampeloqrafik təsvirləri verilmişdir.***

Üzümçülük Naxçıvan diyarında tarixən kənd təsərrüfatının əsas sahələrindən biri olmuşdur. Əlverişli torpaq-iqlim şəraiti bu ərazidə xalq seleksiyası yolu ilə 120-dən çox aborigen üzüm sortunun becərilməsinə imkan vermişdir. Azərbaycanın üzüm genefondunda Naxçıvan regionunda yayılan üzüm sortları yüksək şəkərliliyi, keyfiyyət göstəriciləri və təsərrüfat-texnoloji irsi əlamətləri ilə səciyyələnirlər.

Azərbaycanda üzümçülüyün yeni bazar iqtisadiyyatı şəraitində inkişaf etdirilməsi, bu inkişafın hüquqi bazasının yaradılması məqsədilə Azərbaycan Respublikasının Milli Məclisində 29 yanvar 2002-ci ildə “Üzümçülük və Şərabçılıq haqqında” Qanunun qəbul edilməsinin mühüm əhəmiyyəti olmuşdur. Respublikada üzümçülüyün yenidən inkişaf etdirilməsinə ildən-ilə diqqət artmaqdadır.

Naxçıvan Muxtar Respublikasında üzümçülüyün inkişafının yaxın keçmişinə nəzər salsaq, görərik ki, 1979-cu ildə “Azərbaycan SSR-də kənd təsərrüfatını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında” Qərardan sonra o dövrdə əkinəyararlı sahələrin 66-72 faizini yeni salınan üzüm plantasiyaları təşkil etmişdir. Muxtar respublikada üzümçülük 1979-1987-ci illərdə ən yüksək inkişaf mərhələsinə çatmışdır. Belə ki, 1982-ci ildə 66 min ton, 1986-cı ildə 88,1 min ton üzüm istehsal edilmişdir.

Azərbaycanda müstəqil dövlət quruculuğunun ilk illərində bütün sahələrdə olduğu kimi, muxtar respublikanın aqrar sektorunda, həmçinin üzümçülükdə də bir sıra çətinliklər yaranmışdı. Kollektiv mülkiyyətin ləğv olunması, özəl qurumların isə gec formalaşmasının obyektiv səbəbləri, blokada vəziyyəti ilə əlaqədar şərab məhsullarının satışa çıxarılması çətinlikləri üzüm plantasiyalarının kütləvi məhv edilməsinə gətirib çıxardı.

Hazırda əhalinin üzüm və ondan hazırlanan müxtəlif məhsullara olan tələbatı ildən-ilə artmaqdadır. Muxtar respublikada müxtəlif irsi əlamətlərə malik olan üzümün genefondunun qorunması və tədqiqi, morfoloji və aqrobioloji xüsusiyyətlərinin öyrənilməsi, yeni sort və formaların alınması üçün məqsədyönlü seleksiya işlərinin aparılması, sort tərkibinin iqtisadi baxımdan daha səmərəli sortlarla zənginləşdirilməsi, xüsusilə müxtəlif vaxtlarda yetişən, rentabelliliyi yüksək olan, şaxtalara, xəstəlik və ziyanvericilərə dözümlü yeni sortların genefonda əlavə edilməsi, perspektivli sortların istehsalata yönəldilməsi və istifadəsi üçün səmərəli təkliflərin hazırlanması aqrar sektorda aktual problemlərdən biridir. Üzüm genefondunda müxtəlif genetik irsi əlamətlərə malik genotiplərin araşdırılması, müsbət irsi əlamətli donorların müəyyənləşdirilməsi, seleksiya yolu ilə yeni sortların yaradılması, onların istehsalata yönəldilməsi mühüm elmi-praktik əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikasında əhalinin müxtəlif meyvə, təzə üzüm və ondan hazırlanan məhsullarla etibarlı təminatına dair elmi əsasların yaradılması, elmi konsepsiyaların işlənilməsi dövrün tələbinə çevrilmişdir. “Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası” kitabı bu məqsədlə yazılmış fundamental əsərdir. Monoqrafiya “Giriş”, “Ümumi ampeloqrafiya”, “Xüsusi ampeloqrafiya” və “Perspektivli üzüm sortlarının iqtisadi qiymətləndirilməsi” bölmələrindən ibarətdir. Nəşrdə ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründən üzümçülüyün bu günədək olan inkişaf yolu işıqlandırılır, keçmiş Sovet İttifaqı rəhbərliyinin üzümçülüyə dair qəbul etdiyi qərarın mənfi nəticələri təhlil edilir, müasir dövrdə bu sahənin inkişafı istiqamətində görülən sistemli işlərdən söz açılır.

Kitabın “Giriş” hissəsində dünya miqyasında üzümçülük istiqamətində aparılan elmi-tədqiqat işlərinin və bir elm sahəsi kimi ampeloqrafiyanın şöbələrinin (ümumi ampeloqrafiya, xüsusi ampeloqrafiya, interaktiv ampeloqrafiya) izahı öz əksini tapmışdır.

“Ümumi ampeloqrafiya” bölməsində Naxçıvanda üzümün becərilməsi və inkişaf yolundan, bu istiqamətdə aparılan ampeloqrafik tədqiqatların müasir vəziyyətindən, Naxçıvan Muxtar Respublikasında üzümçülüyün inkişaf tarixi, təbii şəraiti və müasir vəziyyətindən danışılır.

Kitabın “Xüsusi ampeloqrafiya” bölməsində 93 aborigen (9 kişmişi, 29 süfrə, 19 universal, 36 texniki), 9 introduksiya olunmuş və 5 seleksiya yolu ilə alınmış yeni üzüm sortlarının tam ampeloqrafik təsvirləri verilmişdir.

“Perspektivli üzüm sortlarının iqtisadi qiymətləndirilməsi” bölməsində isə 41 aborigen, 17 introduksiya edilmiş üzüm sortlarının iqtisadi səmərəliliyi haqqında ətraflı məlumat işıqlandırılmışdır.

Kitabda qədim aborigen üzüm sortlarının Azərbaycan dilindəki doğma adları bərpa edilməklə yanaşı, muxtar respublika ərazisinin üzüm genefonduna daxil olan növ və sortların ayrı-ayrılıqda tanıdılması məqsədilə təbiətdə çəkilmiş rəngli, orijinal fotoşəkilləri verilmişdir. Nəşrin üzümçülüklə məşğul olan mütəxəssislər üçün elmi-metodik baxımdan faydalı olacağına inanırıq.

*Qeyd edək ki, regionda yayılan üzüm növ və sortlarının elmi əsaslarla öyrənilməsi, bu növ və sortların qorunub saxlanılması baxımından elmi-praktik əhəmiyyəti olan “Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası”, şübhə yoxdur ki, kənd təsərrüfatı ilə məşğul elmi işçilərin və üzümçülərin stolüstü kitabına çevriləcəkdir.*

**Əliyar İBRAHİMOV**
***AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun şöbə müdiri, biologiya elmləri doktoru***

---

***Futbol üzrə Azərbaycan I divizionunun lideri “Araz-Naxçıvan” futbol komandası 19-cu turda növbəti qələbəsini bayram edib. Doğma azarkeşlər önündə komandamızın budəfəki qonağı “Turan-T” futbol komandası olub. Tovuz təmsilçisinin son turlar uğurlu çıxışı və turnir cədvəlində üst pillələrdə qərarlaşması matçın gərgin keçəcəyindən xəbər verirdi. Lakin qonaqlardan daha üstün oyun sərgiləyən qırmızı-ağlar 3 xalı bir qolla əldə etdilər.***

## “Araz-Naxçıvan” xallarının sayını 52-yə çatdırdı



### *Canıyevi Quliyev əvəzlədi*

Çətin Ağsu səfərindən sonra “ev”də bu görüşün nə qədər böyük əhəmiyyət kəsb etdiyini bütün futbolçular yaxşı dərk edirdilər. Buna görə baş məşqçi Əsgər Abdullayev işini tədbirli görmüşdü və yetirmələrinə oyunun taleyini ilk hissədəcə həll etməyi tapşırmışdı. Komandanın qol ümidi David Canıyevin cəzalı olması Ə.Abdullayevi heyətdə dəyişiklik etməyə məcbur etmişdi. Onu yeni transfer Fərid Quliyevlə əvəzləyən mütəxəssisin yanılmadığı oyun gedişində göründü. Müdafiə xəttində Mikayıl Rəhimov yenə ehtiyatda saxlanmış və meydan Tural-Ruslan-Ruslan-Əlimirzə kvartetinə həvalə edilmişdi. Yarımmüdafiə xəttində “dirijorluq” Tərlan Xəlilova tapşırılmışdısa, ona Akif Tağıyev və Cavid Həsənov da köməklik edirdi. Bəxtiyar Soltanov və Elmin Çobanov isə Fərid Quliyevə sivri ucda yardımçı olurdular.

Tovuz təmsilçisinə gəlincə, Naxçıvana oyun günü təşrif buyuran qonaqlar daha çox müdafiə futbolu oynamağa önəm vermişdilər. “Turan-T” futbolçuları muxtar respublika komandasını əks-hücumlarda tutmaq və uzaqdan zərbələrlə qapını yoxlamağı qarşılarına məqsəd qoymuşdular.

### *Fəridin ilk qolu*

Oyuna maraq həmişəki kimi çox idi. Stadiona toplaşmış azarkeşlər “Araz-Naxçıvan”ın daha bir qələbəsinə şahidlik etmək istəyirdi. Bunu bilən futbolçular ilk dəqiqələrdən rəqib qapısı önündə lövbər salmağa başladılar. Matçın 10 dəqiqəsinin tamamında ilk təhlükəli vəziyyəti də elə qırmızı-ağlar yaratdılar. Sol cinahdan ötürmə alan Elmin Çobanov cərimə meydançasına daxil oldu. Onun qüvvətli zərbəsi topu ilk olaraq qapıçıya, daha sonra isə qapı tirinə tuşladı. Az sonra komandamız istəyinə çatdı. Belə ki, Bəxtiyar Soltanov uzun ötürməni mükəmməl ram edərək qapı önündə top gözləyən Fərid Quliyevə ideal ötürmə verdi. Topa qapıçıdan öncə yetişən hücumçumuz isə muxtar respublika təmsilçisinin heyətində ilk qoluna imza atdı – 1:0. Vurulan qolla kifayətlənmək istəməyən baş məşqçi yetirmələrinə irəli atılmağı və ikinci topu da rəqib qapısından keçirməyi tapşırdı. Lakin bütün hücumları rəqib qapısı önündə boşa verən futbolçular baş məşqçinin də əsəbləşməsinə səbəb oldular. Nəticədə, Ə.Abdullayev heyətdə dəyişiklik etmək məcburiyyətində qaldı və Tərlan Xəlilovu Eşqin Quliyevlə əvəzlədi.

Azarkeşlər digər əvəzləmələri ikinci hissə başlamazdan öncə gördülər. Belə ki, Tural Hümbətov və Elmin Çobanov müvafiq olaraq Elgiz Kərimli və Əziz Hüseynovla əvəzləndilər. Yeni futbolçuların meydana daxil olması bir qədər hücum xəttində sürətliliyi artırdı. Bir epizodda sağ cinahdan irəliləyən B.Soltanov cərimə meydançasına ötürmə etsə də, futbolçularımızdan heç biri buna yetişə bilmədi. Az sonra oyunda ilk qolun müəllifi F.Quliyev qışda komandaya gələn İrfan Hüseynovla əvəzləndi. Görünən o idi ki, baş məşqçi rəqibi daha çox cinahlardan hücum atəşinə tutmağı planlaşdırırdı. Belə də oldu. Cinahların bir qədər aktivliyi rəqib qapısına olan təzyiqlərimizi də artırdı. Akif Tağıyev uzaqdan zərbə ilə qapıçının sayıqlığını yoxladığı halda, bir qədər sonra Əlimirzə Daşzərininin mükəmməl zərbəsindən havalanan top qapıdan azacıq aralı keçdi. Matçın son 15 dəqiqəsi isə komandamızın diktəsi altında oynanıldı. Hücumçularımızın və yarımmüdafiəxəttimizin səylərinə baxmayaraq, tablodakı hesab dəyişməz olaraq qaldı. Beləliklə, cari mövsümdə 17-ci qələbəsini qazanan “Araz-Naxçıvan” liderliyini davam etdirdi. 52 xalla turnir cədvəlinin zirvəsində qərar tutan komandamız ən yaxın izləyicisini 9 xal qabaqlayır.

Qeyd edək ki, qırmızı-ağların növbəti oyunu martın 8-nə təsadüf edir. Həmin gün Naxçıvan Muxtar Respublika Stadionunda komandamızın rəqibi Gəncənin “Kəpəz” klubu olacaq.

---

## Daha bir turnir başa çatıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına daxil olan daha bir turnirə yekun vurulub. 5 mart – Bədən Tərbiyəsi və İdman Günü ilə əlaqədar yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi turnirdə 40-dan çox idmançı 12 çəki dərəcəsində qüvvələrini sınayıb.

Yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov son zamanlar muxtar respublikada boksa olan maraqdan, idmançıların göstərilən qayğıdan danışıb. Daha sonra idmançılara uğurlar arzulayan idarə rəisi turniri açıq elan edib. Gərgin mübarizə şəraitində keçən döyüşlərdə yeniyetmələrin rinqdəki şücaətləri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Sonda turnirin qaliblərinə federasiyanın qiymətli hədiyyələri təqdim olunub, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları verilib.

**✍ Ceyhun MƏMMƏDOV**

---

### *İtmişdir*

Naxçıvan şəhəri, “Qoçüstü” məhəlləsi, bina 3, mənzil 12-də yaşayan Cəfərova Gülnabat Əli qızının adına olan 5849 inventar nömrəli texniki pasport və MH-0008198 seriya nömrəli Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhər sakini Orucov Cabir Əli oğlunun adına olan 1543 inventar nömrəli texniki pasport və 17 dekabr 2008-ci il tarixdə Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilmiş 0010610 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhər sakini Yusifova Həcər Yusif qızının adına olan 10434 inventar nömrəli texniki pasport və 13 noyabr 2007-ci il tarixdə Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilmiş 0005790 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

---

### *Allah rəhmət eləsin*

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Təbii Ehtiyatlar İnstitutunun direktoru Əliəddin Abbasova, əzizi **HƏTƏMXANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının əməkdaşları iş yoldaşları Mədəd Səfərova, bacısı **ƏFİFƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Batabat Astrofizika Rəsədxanasının elmi işçisi Mirhəsən Tahirova, atası **MİRMƏHƏMMƏDİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin magistratura üzrə dekanı Etibar Məmmədov Tariyel Talıbova, əzizi **ELDARIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin dekanı İman Cəfərov və dekan müavini Rəsul Bağırov Mədəd Səfərova, bacısı **ƏFİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri Zəhmət Şahverdiyev və kafedranın əməkdaşlarından Allahverdi Hüseynov, Elçin Zamanov, Xəzər Hüseynov və İlqar Kəngərli Mədəd Səfərova, bacısı **ƏFİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutu və Batabat Astrofizika Rəsədxanasının kollektivləri Əliəddin Abbasova, dayısı **HƏTƏMXANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Batabat Astrofizika Rəsədxanasının kollektivi iş yoldaşları Mirhəsən Tahirova, atası **MİRMƏHƏMMƏDİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin kollektivi iş yoldaşları İntiqam Abbasova, atası **BƏDƏL ABBASOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 226